# Türkiyənin və Azərbaycanın müdafiə nazirləri cəbhədə yaranmış vəziyyəti müzakirə ediblər

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri İsmət Yılmaz və Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar ilə işğal olunmuş ərazilərimizdə baş vermiş hadisələri və burada yaranmış vəziyyəti telefonda müzakirə ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, danışıqlar zamanı Türkiyə tərəfi Azərbaycanın tam haqlı mövqedə olduğunu bir daha vurğulayıb və ölkəmizə dəstək olduğunu qətiyyətlə ifadə edib.